# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci Gənc Alim və Mütəxəssislərin müsabiqəsinin (EİF/GAM-2013-2(8)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Elmin və informasiya-kommunikasiya texnologiyalarının inkişafının müasir bədii yaradıcılıq prosesinə təsiri**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Yaqubova Maral Rafiq qızı**

Qrantın məbləği: **10 000 manat**

Layihənin nömrəsi: **EİF/GAM-2-2013-2(8)-25/23/5-M-21**

Müqavilənin imzalanma tarixi: **08 aprel 2014-cü il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Layihənin həyata keçirilməsi üçün nəzərdə tutulan işlər əsasən, müxtəlif elmi jurnallarda məqalələr çap etdirmək, beynəlxalq və ölkədaxili konfrans və simpoziumlarda layihənin tanıtımı məqsədilə iştira etmək idi. Tədqiqat boyu istifadə olunan üsul və yanaşmalar, müasir elmi nəzəri metodologiyaya əsaslanır. Elm, informasiya-kommunikasiya sistemləri və bədii ədəbiyyat ayrılıqda struktur kimi izlənilir. Bu sistem-strukturların müxtəlif paradiqmalarda birləşən oxşar və fərqli cəhətləri müqayisə olunmaqla elmi qənaətlərə əldə edilir. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | Layihədə nəzərdə tutulan işin 50% -i yerinə yetirlib. Mövzunun yeniliyi, ilk dəfə işlənilməsi və |

| | |
|---|---|
| | fundamental xarakter daşıdığını nəzərə alsaq, bunu 12 ay üçün qənaətbəxş nəticə hesab etmək olar. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | **“Kvant fizikası və bədii ədəbiyyat” adlı məruzədə** ilk dəfə ədəbi və fiziki modellər bir-biri ilə qarşılaşdırılır, Nyuton və Kvant fizikası arasındakı fərqlər bədii ədəbiyyat nöqteyi-nəzərindən araşdırılır.<br>Elmi nəticə: XIX əsrin sonlarında XX əsrin əvvəllərində Kvant fizikasının kəşfi təkcə texniki fənnlərə təsir etməklə qalmadı. İnsanın düşüncə və dünyanı dərketmə modeli dəyişdi. Kvant fizikasının, müşahidəçi, müşahidə olunan və müşahidə aləti modeli ilə ədəbiyyat nəzəriyyəsindəki oxucu, müəllif və əsər modelinin müasir forması arasında müəyyən bağlantı vardır.<br>**Bədii ədəbiyyatda məkan anlayışı (interdisiplinar yanaşma)”** adlı məruzədə məkan anlayışının bədii ədəbiyyatda ehtiva etdiyi mahiyyətin araşdırılmasında ilk dəfə interdisiplinar yanaşma ortaya qoyulur. Fəlsəfə, fizika, riyaziyyat, incəsənət və ədəbiyyatın ortaq termini olan “məkan” fənlərarası münasibətlərin fonunda təhlil edilir. Məkan elm və incəsənətin fərqli mövqelərinin bir-biri ilə güzəştə getdiyi ortaq nöqtə kimi şərh olunur.Ədəbi-nəzəri düşüncədə “bədii məkan” anlayışının formalaşmasında müxtəlif fənlərin təsiri və bu təsirin uğradığı deformasiyalar bədii ədəbiyyat nümunələri əsasında araşdırılır<br>**Postmodern bədii düşüncənin model yaratma məntiqi.** Məruzədə postmodern təfəkkürün model yaratma məntiqinin mahiyyəti araşdırılır. Postmodernizmin bədii-estetik strukturunu ortaya qoyan önəmli faktor kimi izlənilən alternativlik prinsipi ilə dünya şöhrətli Lütfi-zadənin “qeyri-səlis məntiq” nəzəriyyəsi arasındakı mövcud əlaqələr təhlil olunur. Məruzənin əsas qənaətlərindən biri də budur ki, “Qeyri-səlis çoxluqlar”nəzəriyyəsi, Aristotelin klassik məntiqindən imtina edən postmodernizmin nəzəri ehkamlarına, elm və incəsənətin konvergensiyası kontekstində daha çox uyğundur.<br>**“Postmodernist düşüncənin strukturu və bədii məkan”** Bu məruzə yuxarıda qeyd etdiyimiz ikinci bəndin davamı hesab oluna bilər. Postmodernizmin olduqca geniş əhatə dairəsi olduğunu vurğulamaqla, məkanın fiziki və bədii məzmunu arasında müqayisələr apaılır. Bu düşüncənin məkan konsepsiyasına gətirdiyi yeniliklər xarakterizə olunur. Bütün dövrlərdə yaranmış ədəbiyyatın tərkib komponenti olan məkan postmodernizmdə daha çox fəlsəfi-psixoloji missiya ilə yüklənir, hadisələrin baş verdiyi məkanları ifadə etməklə qalmır, eyni zamanda çağın daha qlobal problemlərinin, etik-əxlaqi, mənəvi-tarixi məsələlərinin bədii həllində əvəzedilməz vasitəyə çevrilir. Məkan postmodernist ədəbiyyata həm mətn təhkiyə sisteminin aparıcı ünsürü, həm də ədəb-bədii mövzu səviyyəsində daxil olur. |
| **4** | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | 1. Kvant fizikası və bədii ədəbiyyat. Məruzə. Bakı Elm festivalı (10-11 noyabr 2014 –cü il) çərçivəsində keçirilmiş “Fizika və Lirika” konfransının materialları (hal-hazırda çapdadır)<br>2. Postmodern bədii düşüncənin model yaratma məntiqi. Dedicated to the 92 nd Anniversary |

of the Natioanl Leader of Azerbaijan, Heydar Aliyev III international scientific conference of young researchers proceedings, Second Book, Qafqaz University, 17-18 april 2015, Baku, Azerbaijan. Pp 926-928

3. Bədii ədəbiyyatda məkan anlayışı (interdisiplinar yanaşma). Məqalə Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin təşəbbüsü, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə çap olunan “Gənc Alimlərin əsərləri ” jurnalının 2015-ci il 11-ci sayında dərc olunmaq üçün jurnalın redaksiya heyəti tərəfindən qəbul edilmişdir. (aprel ayında)

4. Postmodernist düşüncənin strukturu və bədii məkan. 4 iyun 2015-ci il tarixdə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Gənc alim və mütəxəssislər şurasının təşkilatçılığı ilə keçiriləcək Xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyinə həsr elmi konfransa tədim etmişəm. Məruzənin tezisi çapdadır.

| | |
|---|---|
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |

1. Layihə üzrə nəzərdə tutulduğu kimi 20 iyuldan 30 iyul tarixinə qədər Türkiyədə, İstanbul şəhərində Bəyazit Dövlət Kitabxanasında tədqiqat aparmaq üçün ezamiyyətdə olmuşam. Beyazit kitabxanası (eski adı:**Kütüphane-i Umumi Osmani**), İstanbul şəhərində Bəyazit Məscidi ve tarixi Sahaflar Çarşısı arasında, Beyazit Meydanına baxan iki tarixi binada 1884 ildən başlayaraq fəaliyyətdədir. Türkiyədə dövlət xətti ilə qurulmuş ilk fundamental kitabxanadır. .Eyni zamandan 1 milyona yaxın kitab, jurnal, qəzet və digər sənədləri özündə birləşdirən kitabxana Türkiyənin ən önəmli elm arxivi hesab olunur. http://www.beyazitkutup.gov.tr/www.beyazitkutup.gov.trKitabxanada oxucular əsasən müxtəlif zallarda kitabların elektron sifarişlə əldə edirlər. Kserokopiya və CD-yə yazma xidmətlərinin olması ezamiyyətin müddətini nəzərə alsaq, mənim işimi asanlaşdırdı. Lakin son dövrün nəşrlərində kserokopiya və CD xidmətlərində məhdudiyyət qoyulmuşdu ki, bu da həmin kitabların satışda olması ilə əlaqədar idi. Ümumiyyətlə, kitabxanada olduğum müddətdə əldə etdiyim materialların yeniliyi və Azərbaycan kitab bazarında, internetdə olmaması ezamiyyətin layihənin yerinə yetrilməsindəki faydasını bir daha vurğuladı. Ezamiyyət müddətində tədqiqat mövzumla bağlı çoxlu sayda materialla tanış olmağa müyəssər olmuşam. Bunların arasında biravasitə mütaliə etdiklərim, kserokopiya vasitəsilə faydalandıqlarım, eyni zamanda fotoaparat vasitəsi

ilə şəklini çəkib götürdüklərim vardır. Məsələn, Orhan Hancerlioğlu,Yalçın Küçük, Paul. J.Nahin, Nur Akdağ, Michael Albert, Noam Chomsky, Edward S.Herman, Burckhardt Titus, Murat Eriç, Mitchell Stephen, A.Kula Onur Bilge, Alexandre Koyre, Tiles Mary,Guenon Rene, Waerden B.L.Van Oder, Yalçın Küçük, Alan Sokal və sair müəlliflərin əsərləri ilə tanış olmaq imkanım oldu. İstanbulda olduğum müddətdə kitabxananın yerləşdiyi Beyazit meydanında təşkil olunmuş "33-cü Türk Kitap və Kültür Fuarı"na (sərgisinə) təsadüf etməyimi də yüksək dəyərləndirirəm. Fuarda layihə ilə bağlı ehtiyacını duyduğum bir sıra kitabları birbaşa Yayın evlərindən (Nəşriyyatlardan) almaq şansım oldu.

2. Layihə üzrə nəzərdə tutulduğu kimi 22 oktyabrdan 30 oktyabr tarixinə qədər Rusiyada, Sankt-Peterburq şəhərində Rusiya Elmlər Akademiyasının kitabxanasında tədqiqat aparmaq üçün ezamiyyətdə olmuşam. Kitabxana Sankt-Peterburq şəhəri (199034), Neva çayının yaxınlığında, Birja prospektində, Saxarov meydanında yerləşir. Nəinki Rusiya, eyni zamanda keçmiş SSRİ ölkələrininin mədəniyyət və elm tarixinə dair fundamental çox sayda kitab, jurnal, qəzet və digər sənədləri özündə birləşdirən kitabxana Rusiyanın ən önəmli elm arxivi hesab olunur. www.rasl.ruKitabxanada oxucular əsasən müxtəlif zallarda kitabların sifarişlə əldə edirlər. Kserokopiya və skaner xidmətlərinin olması ezamiyyətin müddətini nəzərə alsaq, mənim işimi asanlaşdırdı. Lakin son dövrün nəşrləridə kserokopiya və skaner xidmətlərində məhdudiyyət qoyulmuşdu ki, bu da həmin kitabların satışda olması ilə əlaqədar idi. Ümumiyyətlə, kitabxanada olduğum müddətdə əldə etdiyim materialların yeniliyi və Azərbaycan kitab bazarında, internetdə olmaması ezamiyyətin layihənin yerinə yetrilməsindəki faydasını bir daha vurğuladı. Ezamiyyət müddətində tədqiqat mövzumla bağlı çoxlu sayda materialla tanış olmağa müyəssər olmuşam. Mixail Penkin, Lev Kişkin, Ralf Kram, Lionel Qossman, Conatan Smit, Ceyms Sosnoski, David Petrov, Abraam Mol, Nikolay Qrintser və bu kimi bir çox müəlliflərin layihəmin mövzusu ilə bağlı əsərləri ilə tanış oldum.Bunların arasında biravasitə mütaliə etdiklərim, kserokopiya vasitəsilə faydalandıqlarım, eyni zamanda fotoaparat vasitəsi ilə şəklini çəkib götürdüklərim vardır. Rusiya Elmlər Alkademiyası Kitabxanasində ezamiyyətdə olduğum müddət ərzində əldə etdiyim materiallar, ən önəmlisi yeni informasiyalar, bilik ehtiyamı zənginləşdərəcək mənbə və qaynaqlarla tanışlıq məndə böyük məmnunluq hissi oyatdı.

| | |
|---|---|
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | 1. "Kvant fizikası və bədii ədəbiyyat" adlı məruzə ilə Bakı Elm festivalı (10-11 noyabr 2014 –cü il) çərçivəsində keçirilmiş "Fizikad və Lirika" konfransında çıxış etmişəm. Həmin məruzənin mətni hal-hazırda Nizami adına Ədəbiyyat İnstitutunun xüsüsi nəşrində çapdadır. Mətnin əlyazma |

| | |
|---|---|
| | variantı hesabata əlavə olunur.<br>2. Postmodern bədii düşüncənin model yaratma məntiqi" adlı məruzə ilə Qafqaz Universitetində keçirilmiş Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransında (17-18 Aprel 2015) çıxış etmişəm. Məruzənin tezisi konfrans materiallarında çap olunmuşdur. Hesabata əlavə olunur.<br>3. Postmodernist düşüncənin strukturu və bədii məkan. 4 iyun 2015-ci il tarixdə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Gənc alim və mütəxəssislər şurasının təşkilatçılığı ilə keçiriləcək Xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyinə həsr elmi konfransa tədim etmişəm. Məruzənin tezisi çapdadır. əlyazma mətni hesabata əlavə olunur. |
| **10** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | Noutbuk və printer |
| **11** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| **12** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)* |

**SİFARİŞÇİ:**

**Elmin İnkişafı Fondu**

**Müşavir**

**İCRAÇI:**

**Layihə rəhbəri**

Babayeva Ədilə Əli qızı

__________________

*(imza)*

" __" ________ 201_-ci il

Yaqubova Maral Rafiq qızı

__________________

*(imza)*

" __" ________ 201_-ci il

**Baş məsləhətçi**

Daşdəmirova Xanım Faiq qızı

__________________

*(imza)*

" __" ________ 201_-ci il